**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında**

**ANLAŞMA MEMORANDUMU**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Koreya Statistika Komitəsi (bundan sonra "Tərəflər" adlandırılacaqdır) öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq milli statistika sisteminin inkişafına cavabdeh dövlət qurumu olduqlarını təsdiq edir, statistika sahəsində əməkdaşlığın təşviq və inkişaf etdirilməsi, habelə Tərəflər arasında statistikanın qarşılıqlı maraq doğuran müxtəlif sahələri üzrə əlaqələrin möhkəmləndirilməsi məqsədilə aşağıdakılar barədə razılığa gəlirlər:

**Maddə 1**

Tərəflər öz səlahiyyətləri çərçivəsində öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq, rəsmi statistika sahəsində aşağıdakı istiqamətlərdə əməkdaşlığı təşviq edirlər:

- texniki əməkdaşlıq üzrə beynəlxalq proqramlarda iştirakla bağlı birgə səylərin davam etdirilməsi;
- beynəlxalq statistik standart və metodların icrası və tətbiqində təcrübə və informasiya mübadiləsinin aparılması;
- metodoloji tədqiqatların və qarşılıqlı maraq doğuran layihələrin birgə icrası;
- statistik istehsal prosesində müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi, son yeniliklərin və təcrübələrin bölüşülməsi məqsədilə birgə görüş, seminar və konfransların təşkil edilməsi;
- kadr potensialının gücləndirilməsi ilə bağlı qarşılıqlı fəaliyyətlərin həyata keçirilməsi.

Tərəflər, həmçinin qarşılıqlı razılıq əsasında əməkdaşlıq üçün digər sahələri də əlavə edə bilərlər.

**Maddə 2**

Tərəflər aşağıdakı vasitələrlə statistika sahəsində əməkdaşlığı dəstəkləyirlər:

- nəşr olunan statistik məcmuələrin, metodoloji və digər aidiyyəti materialların mübadiləsi;
- digər Tərəfin qabaqcıl təcrübəsinin öyrənilməsi məqsədilə elektron poçt mübadiləsinin, telekonfransların və mütəxəssislər üçün təlim səfərlərinin təşkili;

- beynəlxalq təşkilatlar tərəfindən statistika sahəsində təşkil edilən tədbirlər çərçivəsində qarşılıqlı əlaqə;
- digər Tərəfin təşəbbüsü ilə texniki layihələrin həyata keçirilməsi.

**Maddə 3**

Tərəflər zəruri olduqda bu Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq sahələrini İş Planları vasitəsilə müəyyən edirlər. İş Planlarında əməkdaşlığın mövzuları və formaları, texniki və maliyyə öhdəlikləri və qarşılıqlı şəkildə razılaşdırılmış digər məsələlər təsvir edilir. Bu Anlaşma Memorandumunun yerinə yetirilməsi üzrə xərclər və məsrəflər qarşılıqlı məsləhətləşmə yolu ilə İş Planlarına uyğun olaraq birgə qərarlaşdırılır.

İş Planları Tərəflərin imzası ilə təsdiq edilir və bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi hesab olunur.

**Maddə 4**

Hər bir Tərəf bu Anlaşma Memorandumunun icrası ilə bağlı kommunikasiya və əlaqələndirmə üçün əlaqələndirici şəxs təyin edir.

**Maddə 5**

Hər bir Tərəf statistik konfidensiallıq və məlumatların qorunması ilə bağlı digər Tərəfin dövlətinin milli qanunvericiliyinə hörmət edir və digər Tərəfin əvvəlcədən yazılı razılığı olmadan nəşr olunmamış, açıqlanmamış məlumatları üçüncü tərəfə açıqlamır və vermir.

**Maddə 6**

Bu Anlaşma Memorandumu heç bir Tərəfə digər Tərəfin hər hansı patentlər, müəlliflik hüquqları, əmtəə nişanları, firma adları, xidmət nişanları və ya digər əqli mülkiyyət obyektlərindən istifadə hüququnu vermir. Digər Tərəfin əqli mülkiyyət hüquqlarından istifadə etmək və ya əqli mülkiyyətin birgə istifadəsi ilə nəticələnən fəaliyyətlər ilə məşğul olmaq üçün Tərəflər ayrıca yazılı razılığa gəlirlər.

**Maddə 7**

Fəaliyyətlərin və əlaqənin işçi dili ingilis dilidir. Anlaşma Memorandumu ilə bağlı bütün yazışmalar, eləcə də bütün hesabatlar ingilis dilində tərtib edilir.

**Maddə 8**

Bu Anlaşma Memorandumunun təfsiri və ya tətbiqi zamanı yarana biləcək hər hansı fikir ayrılıqları Tərəflər arasında danışıqlar və məsləhətləşmələr yolu ilə həll olunur.

**Maddə 9**

Bu Anlaşma Memorandumuna hər hansı əlavə və dəyişikliklər Tərəflərin qarşılıqlı razılığı ilə edilə bilər. Belə əlavə və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdirilir və bu Anlaşma Memorandumunun 10-cu maddəsinin müddəalarına uyğun olaraq qüvvəyə minir.

**Maddə 10**

Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların tamamlanmasını təsdiq edən sonuncu yazılı bildirişin Tərəflər tərəfindən diplomatik kanallar vasitəsilə alındığı tarixdə qüvvəyə minir.

Bu Anlaşma Memorandumu 5 (beş) il müddətinə bağlanılır və Tərəflərdən biri bu Anlaşma Memorandumunu ləğv etmək niyyəti haqqında ən azı 6 (altı) ay əvvəl diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı şəkildə məlumat vermədiyi təqdirdə, avtomatik olaraq növbəti 5 (beş) illik müddətlərə uzadılır.

Bu Anlaşma Memorandumu Bakı şəhərində 2019-cu il 11 dekabr tarixində Azərbaycan və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Təfsirdə fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətnə üstünlük verilir.

**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi adından**

**Koreya Statistika Komitəsi adından**